**Dövlət Statistika Komitəsi nümayəndəsinin Cenevrə şəhərində təşkil edilmiş tullantılar statistikasına dair seminarda iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndəsi Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin Ekologiya, meşə təsərrüfatı və balıqçılıq statistikası sektorunun müdiri Rəna Lazımova BMT-nin Avropa İqtisadi Komissiyası, Avrostat və Avropa Ətraf Mühit Agentliyi tərəfindən cari il aprel ayının 11-13-də Cenevrə şəhərində təşkil edilmiş tullantılar statistikasına dair seminarda iştirak etmişdir.




Seminar Avropada tullantılara dair statistik məlumatların toplanması və yayılması, metodologiyalar, təsnifatlar, sorğu vərəqlərinin işlənməsi, statistik məlumatların hazırlanması problemləri ilə bağlı məsələlərə həsr olunmuşdu.

Seminarın gedişində qruplara bölünmüş ölkələrin nümayəndələri tərəfindən məlumatların və dinamika sıralarının mövcudluğu, məlumatların yoxlanması, metodoloji uyğunsuzluq, ayrı-ayrı ölkələr üzrə təsnifatların müqayisəliliyi və məlumatların müəyyənləşdirilməsi, normativ-hüquqi bazası, məlumatların yayılması və tullantılara dair digər məsələlər müzakirə edilmişdi. Müzakirələr zamanı qeyd olunan məsələlərlə bağlı nümayəndəmiz Azərbaycandakı mövcud vəziyyət haqqında geniş məlumat vermişdir.




Müzakirələr zamanı Avropa və MDB ölkələri arasında fərqlər nəzərə çatdırılmışdır. Qeyd edilmişdir ki, Avropa ölkələrində ətraf mühitin qorunmasına, MDB ölkələrində isə şəhərin təmizliyinə və tullantıların vaxtında daşınmasına önəm verilir. Avropa ölkələrində tullantıların miqdarının uçotu onların tərəzidə ölçülməsi, yəni tullantıların real kütləsinin tonla qeydə alınması yolu ilə aparılır, həmçinin tullantıların çeşidlənməsi həyata keçirilir. MDB ölkələrində isə, tullantıların toplanması kommunal xidmətlər, bələdiyyələr məşğul olurlar. Bu ölkələrdə tullantıların miqdarı zibilləri daşıyan yük maşınlarının sayı ilə müəyyən edilir və kub metrlərlə ölçülür ki, bu da ciddi səhvlərlə nəticələnir. Ölkələrin öz təsnifat sistemlərindən istifadə etməsi məlumatların müqayisə olunmasına imkan vermir. Öhdəlik götürmüş ölkələr tərəfindən beynəlxalq hesabatlardakı tələblər nəzərə alınmalı və ölkələrdə sıx idarələrarası əməkdaşlıq mövcud olmalıdır.

Hazırda İqtisadi İnkişaf Nazirliyi və Dünya Bankı tərəfindən "Bərk Məişət Tullantılarının Vahid İdarəçiliyi Layihəsi" həyata keçirilir. Azərbaycanda bərk məişət tullantılarının idarə edilməsi ilə əlaqədar Milli Strategiyanın hazırlanması nəzərdə tutulur ki, bu da bütün ölkə ərazisində bərk məişət tullantılarının etibarlı, davamlı və səmərəli idarə edilməsi proqramının həyata keçirilməsinə imkan verəcəkdir.